Sahibə Hidayət qızı Əliyeva
*Bakı Dövlət Universiteti*
*Kitabxanaşünaslıq kafedrasının müəllimi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*
*sahiba.aliyeva.71@mail.ru*

*UDC 027.54*

# HÜQUQİ DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASINDA KİTABXANALARIN QARŞISINDA DURAN VƏZİFƏLƏR

***Xülasə:*** *Müstəqil Azərbaycan dövlətinin yaranmasından sonra hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşması istiqamətində əməli tədbirlər görülməyə başlandı. Bu tədbirlər çərçivəsində mədəni-maarif, o cümlədən kitabxana işi sahəsində müsbət keyfiyyət dəyişiklikləri həyata keçirildi. Vətəndaş cəmiyyətinin formalaşmasının ən mühüm elementlərindən biri də müasir modern kitabxanaların yaranması istiqamətindəki keyfiyyət dəyişiklikləri idi. Məqalədə müasir kitabxanalara verilən tələb və təkliflər, kitabxanaların elektronlaşması, elektron kataloq və kartoteka sistemlərinin yaranması, bu sahədəki uğurlar açıb göstərilir.*

***Açar sözlər:*** *hüquqi dövlət, vətəndaş cəmiyyəti, informasiya cəmiyyəti, biliklər cəmiyyəti, modern kitabxana, intellektual resurslar.*

Sahiba Hidayat qızı Aliyeva

## The role of libraries in the formation of the rule of law and civil society

***Summary:*** *After the establishment of the Independent State of Azerbaijan, practical measures were taken to form the rule of law and civil society. were qualitative changes in direction. The article describes the demand and supply of modern libraries, the electronicization of libraries, the creation of electronic catalog and card index systems, and the progress in this area.*

***Key words:*** *Rule of Law, Civil Society, Information Society, Knowledge Society, Modern Library, Intellectual Resources.*

Сахиба Гидаят кызы Алиева

## Роль библиотек в формировании верховенства закона и гражданского общества

***Резюме:*** *После создания независимого Азербайджанского государства были предприняты практические меры по формированию верховенства закона и гражданского общества, произошли качественные изменения в направлении. В статье описывается спрос и предложение современных библиотек, электронизация библиотек, создание электронного каталога и картотеки, а также прогресс в этой области.*

***Ключевые слова:*** *верховенство закона, гражданское общество, информационное общество, общество знаний, современная библиотека, интеллектуальные ресурсы.*





Hüquqi dövlət - dövlətin təşkilinin və fəaliyyətinin elə bir formasıdır ki, burada insan və vətəndaşın hüquqları və azadlıqları təmin olunur, dövlət hakimiyyətinin fiziki şəxslər və onların müxtəlif birlikləri ilə əlaqədar hüquqi əsası qurulur. Sosial dövlət, demokratik dövlət, dünyəvi dövlət hüquqi dövləti tamamlayan xüsusiyyətlərdir. Hüquqi dövlətdə dövlət hakimiyyəti sistemi hakimiyyətin bölgüsü, hüquqi qanunların aliliyi, hamının qanun qarşısında bərabərliyi prinsiplərə əsaslanır.

Vətəndaş cəmiyyəti - ictimai qurumların, siyasi partiyaların, yaradıcı birliklərin, dini birliklərin təşkilat və fəaliyyəti, habelə iqtisadi sahəsi, elm və texnika, təhsil, tərbiyə sahəsi, cəmiyyətin ilkin əsası olan ailə, kütləvi informasiya vasitələri, eləcə də sosial, mənəvi, mədəni sahələr sistemidir ki, bunun vasitəsilə insanların həyat fəaliyyəti, yaradıcılığı və bunların nəsildən-nəslə ötürülməsi üçün fərdlərin və kollektivlərin xüsusi maraq və tələbatlarının reallaşmasında lazımi şəraiti təmin edir.

Vətəndaş cəmiyyətinə verilən tələblərdən biri də vətəndaşların informasiya tələbatının həyata keçirilməsi və informasiyalaşdırılmış cəmiyyətin yaranmasıdır. XX əsrin sonu - XXI əsrin əvvəllərində dünyada informasiya inqilabı baş vermiş, öz mahiyyəti, xarakter xüsusiyyəti ilə tamamilə yeni cəmiyyət olan informasiya cəmiyyəti bərqərar olmuşdur. XXI əsrdə bütün informasiya müəssisələri, böyük elmi kitabxanalar informasiya istehsalına başlamış, informasiya emalını mədəni sərvətlərə çevirmişlər. UNESKO-nun sənədlərində göstərilir: "Biliklər cəmiyyətinin inkişaf mənbəyi məxsusi rəngarənglik və spesifik xüsusiyyətlərdir. Hər bir cəmiyyət biliklər sahəsində özünəməxsus üstünlüyə malikdir" [3].

İnformasiya cəmiyyətinin kitabxana şəbəkələri qarşısında qoyduğu yeni və mürəkkəb vəzifə biliklərin idarə olunmasında iştirak etməkdir. Professor A.Xələfovun dediyi kimi, kitabxanaşünaslıq fəlsəfəsinin əsasını insanın biliklərlə necə davranması, onun necə sistemləşdirməsi və yeni biliklər necə yaratması məsələlərini təşkil etməsidir [4]. Alim kitabxanaşünaslıq fəlsəfəsinin məzmununu açan zaman kitabxanaların sosial funksiyaları anlayışlarının məzmununu da izah etmişdir. Bu funksiyalar aşağıdakılardır:

1) İstifadəçilərin informasiya tələbatını kommunikasiya texnologiyasından istifadə etməklə ödəmək; 2) Tipindən və növündən asılı olmayaraq, bütün kitabxanaların (kütləvi, elmi, elmi-texniki, uşaq, dini və s.) informasiya verilməsində informasiya müəssisəsi kimi istifadə edilməsi; 3) Elm, texnika sahəsinin işçilərinə, biznesmen və digər iş adamlarına xidmətin istehsal təşkili.

Cəmiyyətdə kitabxananın yeri ilə bağlı görkəmli şəxsiyyətlər yüksək fikirlər söyləmişlər: A.Eynşteyn: "Bir insanın fikirləri kitabın köməyi ilə milyonlarla insana çatdıra bilir"; S.Monteskye: "Keçmiş həyatını heç vaxt geri qaytara bilməzsən, amma bir kitabın köməyi ilə dünyanın ən böyük alimlərinin ömür boyu əldə etdikləri təcrübəni qazana bilərsən"; Sokrat: "Mütaliə bir cəmiyyətin gündəlik vərdişinə çevrilərsə, həmin cəmiyyət xoşbəxt olar", - demişdir.

Müasir kitabxanaşünaslığın ən mühüm məsələlərindən biri kimi elektron kitabxanaların tətbiqi və geniş istifadəsidir. İnformasiya cəmiyyətində informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunan kitabxanaların oxucu tələbatının nə dərəcədə ödənilməsi əsas məsələdir. Bu baxımdan elektron kitabxanaların yaradılması informasiya cəmiyyəti quruculugunun mühüm istiqamətlərindən biridir.

Müstəqil Azərbaycan Respublikasının siyasi prioritet məsələlərindən biri də informasiya blokunu yarmaq və öz məqsədyönlü siyasətini aparmaqdır. Bunun üçün birinci növbədə informasiya texnologiyası sahəsində müvəffəqiyyətlərin əldə olunmasıdır. Bu baxımdan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, "Milli təhlükəsizlik konsepsiyası" kimi dövlət sənədləri informasiya sahəsində dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunması, eləcə də informasiya sahəsində milli maraqların müdafiəsinə yönəlmiş tədbirlər kompleksidir. Belə ki, "İnformasiyanın təhlükəsizliyi haqqında" Qanun respublikamızda informasiya təhlükəsizliyinin pozulmasına gətirib çıxaran şərait və hərəkətlərin vaxtında aşkar edilməsi və qarşısının alınması kimi başa düşülür. Onun məqsədi informasiyanın qorunmasının, informasiyanın gizli qalmasının, tamlığının və əlyetərliyinin təmin edilməsidir.

XX əsrin ortalarından elektron hesablama maşınlarının (EHM) tətbiqi informasiyalaşma mühitinin əsasını qoydu. Azərbaycan bu prosesə 1990-cı illərin sonunda qoşuldu. Ümummilli lider Heydər Əliyevin 1998-ci il aprelin 8-də imzaladığı "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanun, "İnformasiya-Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər), İKT üzrə 2005-2008-ci illər, 2010-2012-ci illər üzrə Dövlət Proqramları, 2013-cü ildə İKT ili elan olunması, eləcə də Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün milli strategiyanın həyata keçirilməsi başlandı.

Müstəqillik qazandıqdan sonra kitabxanaların qarşısında duran ən başlıca məsələ modern kitabxana yaratmaq istəyi idi. Bu şəraitdə Azərbaycanda aparılan dövlət siyasəti informasiya-kommunikasiya texnologiyalarının yeni bir prioritet sahə kimi inkişafa əlverişli şərait yaradıb. Bu dönəmdə Azərbaycan dövləti Cenevrə Sammitində razılaşdırılmış prinsiplərə sadiq qalaraq informasiya cəmiyyətinin qurulması istiqamətində dövlət səviyyəsində məqsədyönlü tədbirlər həyata keçirir və informasiya-kommunikasiya texnologiyaları üzrə Milli strategiya qəbul edib. Prezident İlham Əliyevin həmin Sammitdə dediyi kimi, "Bizim ölkədə həm elmi potensial mövcuddur, həm də texnoloji nailiyyətlər imkan verir ki, Azərbaycan bu yöndən regionda aparıcı ölkə olsun [1].

Dünyanın ən mötəbər təşkilatlarından sayılan BMT, UNESKO və İFLA kimi təşkilatlarının sənədlərində və yeritdikləri siyasətdə kitabxanalar vətəndaşların informasiyaya azad müyəssərlik hüquqlarının reallaşdırdığı bir məkan kimi daxildir. Kitabxana siyasəti özündə təhsil, mədəniyyət, informasiyanı əks etdirdiyi üçün cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi funksiyasını həyata keçirən bir zəruri rol oynayır. İnformasiya dünyasına açılan kitabxanalar özlüyündə informasiyanın bütövlüyünü, operativliyini, etibarlığını qoruyub saxlayır.

Müasir dövrdə sosial institut statusuna malik olan kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi qiymətləndirilir. Buna görə də professor Abuzər Xələfov yazır: "Sosial institut kimi kitabxanaların funksiyaları kitabxanaçılıq nəzəriyyə və təcrübəsinin çox mühüm problemlərindən biridir. Bu problemin hərtərəfli tədqiqi kitabxananın sosial rolu, kitabxana və cəmiyyət, kitabxana və informasiya, kitabxana və oxucu, kitabxana və kütləvi





mütaliə problemini dərindən öyrənməyə imkan verməklə yanaşı, müasir cəmiyyətdə kitabxananın yerini və ictimai rolunu müəyyənləşdirməyə də şərait yaradır [3].

İnformasiya cəmiyyəti yeni tipli cəmiyyətdir. Bu cəmiyyət özündən əvvəlki cəmiyyətdən informasiya texnologiyalarına görə fərqlənirlər. Bu cəmiyyət yeni qlobal sosial inqilabın nəticəsi olub, informasiya partlayışından doğan, informasiya və kommunikasiya texnologiyalarının birləşməsi nəticəsində formalaşan yeni tipli cəmiyyətdir. İnformasiya cəmiyyəti həm də biliklər cəmiyyətidir. Biliklər cəmiyyəti intllektual cəmiyyətdir.

Məlumdur ki, informasiya cəmiyyəti qlobal cəmiyyət olduğu üçün burada informasiya mübadiləsinin sərhəd tanımayaraq cəmiyyətə bəşəri sərvətləri mənimsəyərək, mədəniyyətləri bir-biri ilə govuşmasını sürətləndirir, onların qarşılıqlı təsir dairəsini genişləndirir, hər bir cəmiyyətə başqa cəmiyyətdən faydalanmaqla yeniləşmək və təkmilləşmək imkanı verir.

Sivilizasiyanın inkişafının müasir mərhhələsi olan informasiya cəmiyyətinin formalaşdırılmasının və inkişafının əsasında informasiya-kommunikasiya texnologiyaları (İKT) dayanır. Ona görə də informasiya cəmiyyətinin xüsusiyyəti və inkişaf tendensiyalarını İKT müəyyən edir. Bu gün İKT hərtərəfli və dinamik inkişaf proseslərindəndir.

Hazırda dünyanın müxtəlif ölkələrində informasiya cəmiyyəti probleminin araşdırılması ilə bağlı nüfuzlu elmi-tədqiqat mərkəzləri fəaliyyət göstərir.Belə ki, informasiya cəmiyyətini xarakterizə edən çoxlu sayda konsepsiya mövcuddur. Bu konsepsiyanın ən mükəmməli BMT-nin elm, təhsil və mədəniyyət məsələləri üzrə ixtisaslaşmış qurumu olan UNESCO informasiya cəmiyyətinin inkişaf problemlərində öz tövsiyələri ilə çıxış edir. Bu qurum informasiya cəmiyyəti deyil, biliklər cəmiyyəti konsepsiyası ilə çıxış edir.

Bu gün informasiya məkanına qoşulan kitabxanalar, xüsusən də respublikada elmi-metodiki mərkəz rolunu oynayan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası respublikada informasiyalaşdırmanın səviyyəsinə tam cavab verir. AMEA-nın MEK-da yeni texnologiyaların tətbiqi, rəqəmsal informasiya resurslarının yaranması, innovativ ideyaların reallaşması xüsusi rol oynayır. Kitabxanada Azərbaycanşünaslıq elminin, milli-ictimai təfəkkürün etibarlı və ciddi elmi informasiya bazası hesab edilən Azərbaycanşünaslıq şöbəsi fəaliyyət göstərir. Modernləşdirmə işi yalnız kitabxananın xidmət şöbəsinin komplektləşməsindən ibarət olmayıb, informasiya-biblioqrafiya aparatının təkmilləşməsi və yenidən qurulması, beynəlxalq standartların qlobal informasiya mühiti və cəmiyyətin, elmin informasiyalaşdırılması müasir tələblərini əhatə edir.

Qloballaşma şəraitində min illər boyu formalaşan adətlərin yaşaması, gələcək nəsillərə ötürülməsi və bu geniş vüsət alan prosesdə hər bir millətin mövcudluğunun qorunub saxlanılması qarşıda duran ən mühüm vəzifələrdən biridir. Elə buna görə də ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoqda ənənəvi mədəniyyətlərin məhvolma təhlükəsi bu masa arxasında oturan nümayəndələrin əsas mövzusudur. Belə zərurətdən irəli gələrək, yəni qloballaşma prosslərinin getdiyi, yəni mədəniyyətlərin sivilizasiyaların toqquşması baş verdiyi bir dövrdə milli dəyərlərin qorunması, İslamafobiyanın qorxunc fəsadlarının aradan qaldırılması Bakıda keçirilən Tədbirlər planının əsas mövzusudur.

Dünyanı narahat edən qlobal xarakterli məsələlərə dair geniş dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq məqsədilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumundakı çıxışında Prezident İlham Əliyev demişdir: "Multikulturalizm bizim həyat tərzimizdir. Nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinləri, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar" [2]. Bu nöqteyi-nəzərdən Prezident İlham Əliyev 2016-cı ili Azərbaycanda "Multikulyuralizm ili" elan etmişdir.

Bu gün ölkə başçısı tərəfindən dövlət siyasəti kimi elan olunan multikulturalizmin təbligi və onunla bağlı maarifləndirmə işlərinin aparılması çox vacib və aktual bir işdir. Belə ki, bu siyasəti təbliginə yönəlmiş və təcrübədə öz təsdiqini tapmış, respublikada fəaliyyət göstərən aparıcı kitabxanaların çox böyük rolu vardır. Odur ki, multikulturalizmlə bağlı maarifləndirmə işlərinin aparılması, vətəndaşların arasında bu anlayış barədə fikirlərin formalaşması üçün kitabxanaların üzərinə çox böyük məsuliyyət düşür.

Kitabxanalar həmişə çoxsaylı oxucu ordusuna xidmət göstərir, müxtəlif xalqların etiqadını, mədəniyyətini, düşüncə tərzini, məişət və əxlaqını dünya ədəbiyyatının ən gözəl nümunələr vasitəsilə təblig edirlər. Təbii ki, kitabxanaların malik olduğu bu potensial, yəni müxtəlif mədəniyyətlərə və dinlərə dair bilik və məlumatları ehtiva edən kitabların, toplu və məqalələrin bir yerdə cəm olması, eyni zamanda müxtəlif dünyagürüşü və etnik, milli, dini mənşəyə malik olan insanların bir araya gəlməsi onların rolunu daha da artırmış olur. Çünki həm müxtəlif mədəniyyətlərə dair kitab və məlumatların, həm də onlarla maraqlanan oxucuların bir araya gəlməsi özlüyündə təbii bir multikultural mühütin potensialından bu və ya digər istiqamətdə yararlanmaq artıq kitabxanaların üzərinə düşür. Məhz belə bir şəraitdə müxtəlif kitab sərgiləri və təqdimatları, eləcə də müxtəlif mövzularla (məsələn: "Multikulturalizm və dil", "Multikulturalizm və adət-ənənələr") bagļı müzakirələrin təşkil olunması bu siyasətin təbliginin ən səmərəli metodudur.

Müasir kitabxanaların missiyası belə xarakterizə etmək olar: kitabxana keçmişin anbarından gələcəyin istehsal laboratoriyasına çevrilməlidir. Yalnız bu halda kitabxanalar informasiya cəmiyyətində əhəmiyyətli yer tuta bilər. Kitabxanalar əsərlərin müəllif hüquqlarını qorumaga məcburdur, digər tərəfdən isə həmin əsərlərin təhsil, maarifləndirmə və elmi fəaliyyəti üçün istiqamətini təmin etməlidir. Bir sözlə, ictimai maraqlarla müəlliflərin mənafləri arasında incə balans yaratmalıdırlar. Bu problem kitabxanaların gündəlik fəaliyyətində daim hiss olunur.

Elektron resurs dedikdə, informasiya sistemlərində (elektron kitabxanada) yerləşən elektron sənədlər başa düşülür. Elektron resurslar kitabxanaların öz fondlarını komplektləşdirməkdə mühüm əhəmiyyətə malikdir. Elektron resurslar müxtəlif meyarlar əsasında təsnifləşdirilə bilər. Lakin praktikada əsas meyar kimi resursların ənənəvi (çap) versiyasının olub-olmaması götürülür.

Elektron kitabxanalar informasiya cəmiyyətinin atributlarından biri sayılır. Belə ki, informasiya cəmiyyətinin əsas hədəflərindən biri, vətəndaşların informasiyaya əlyetərliyinin təmin olunmasıdır. Vətəndaşların informasiya təminatında isə elektron kitabxanalar xüsusi rol oynayır.





Bu gün kitabxanalar həm əsərlərin müəllifi hüquqlarını qorumaga məcburdur, həm də həmin əsərlərin təhsil, maarifləndirmə və elmi fəaliyyət üçün geniş istifadəsini təmin edir. Belə ki, hazırda elektron kitabxanalar hüquqi problemləri İnformasiya Cəmiyyəti məsələləri üzrə (Ümumdünya Saamitinin, UNESKO-nun, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının, Avropa Birliyinin, Beynəlxalq Kitabxana Assosiasiyaları və Təşkilatları Federasiyasının və digər nüfuzlu beynəlxalq təşkilatının diqqət mərkəzindədir. Avropa Şurası tərəfindən 1999-cu ildə kitabxana quruculuguna olan Tövsiyələr qəbul edilmişdir. Tövsiyələrdə göstərilir:

- müəllif hüquqlarına dair qanunvericilikdə kitabxanalar informasiyaya sərbəst girişi təmin etməklə ictimai funksiyanı yerinə yetirən təşkilat rolunu oynayır,
- kitabxanalar lisenziyalara və digər razılaşmalara əsasən informasiyanı təqdim etməlidirlər,
- kitabxanada, şəxsi istifadə üçün nüsxələmə müxtəlif hüquqlarını pozmur.

Son illər Avropa Birliyində İnformasiya cəmiyyətidə müəllif hüquqlarının və əlaqəli hüquqların ayrı-ayrı aspektlərinin hormoniyalaşdırılması haqqında Direktiv layihəsi fəal şəkildə müzakirə edilir. İFLA da kitabxanaların hüquqi problemlərinin həllinə mühüm töhfələr verməkdədir [1].

1997-ci ildən bu qurumun nəzdində müəllif hüquqları və digər hüquqlarla bagļı komitə fəaliyyət göstərir. Komitənin əsas vəzifəsi dünyada kitabxana qanunvericiliyinin inkişafına dair informasiya toplamaq, lisenziyalaşdırma problemlərini öyrənmək, elektron sistemlərin fəaliyyəti ilə əlaqədar şəxsi həyatın toxunulmazlıgının qorunması, müəllif hüquqlarının, informasiya təqdimatının dəqiqləşdirilməsinin etibarlığının qorunmasıdır [2].

Azərbaycanda fəaliyyət göstərən kitabxanaların vəzifələri "Kitabxana işi haqqında" Qanunda təsbit olunmuşdur. Müasir modern kitabxanaların yaranması, inkişafı istiqamətləri qanunda tənzimlənmir. Ona görə də elektron kitabxanaların fəaliyyətinin leqallaşdırılması üçün qanunvericilik və təşkilati səviyyələrdə müəyyən işlər görmək lazımdır. O cümlədən elektron kitabxanaların müvafiq dövlət qurumunda akkreditasiya olunması və ya qeydiyyatdan keçməsi vacibdir. Ümid edirik ki, kitabxana ictimaiyyəti tərəfindən bu işlər tezliklə öz həllini tapacaqdır.

## ƏDƏBİYYAT


1. *www.ifla-orq./acqusction-collection-devolopment/conferences-workshops*
2. *IFLA. Ключевые проблемы развития коллекций электронных ресурсов: руководство для библиотеков. İFLA. 2012. 38 c.*
3. *Xələfov A.A. Kitabxanalar biliklər cəmiyyətində // Kitabxanaşünaslıq və informasiyaelmi-nəzəri jurnal. - Bakı, 2006, s.51.*
4. *Xələfov A.A. Kitabxanaşünaslıq fəlsəfəsi // Kitabxanaşünaslıq və informasiyaelmi-nəzəri jurnal. - Bakı, 2019, s 3-27.*
5. *Mahmudov R. Elektron kitabxanaların hüquqi problemləri: Elektron kitabxanaların formalaşması problemləri: respublika elmi-praktiki konfransı. - Bakı, 15 aprel 2016, s.37-39.*


***Rəyçi:***
***Elçin Əhmədov, pedaqogika üzrə fəlsəfə doktoru, dosent***